**AZƏRBAYCAN RESPUBLİKASININ**

**SƏHİYYƏ NAZİRİ**

**Ə M R**

№ 102

**Bakı şəhəri** „30" noyabr 2010-cu il

**"Qan xidməti müəssisələrinin şəbəkəsinin optimallaşdırılması və fəaliyyətinin təkmilləşdirilməsi barədə"**

Respublikada qan xidmətinin təkmilləşdirilməsi məqsədilə görülmüş tədbirlər nəticəsində tədarük olunan donor qanının həcmi artmış, qanın komponentlərə bölünməsi işi yaxşılaşdırılmış, qanın təhlükəsizliyinin təmin edilməsində laborator nəzarəti gücləndirilmişdir.

Bununla yanaşı qan xidməti müəssisələrinin idarə edilməsində pərakəndəlik, qan tədarükü ilə məşğul olan tibb müəssisələrinin işində ciddi nöqsanlar bu fəaliyyətin səmərəliliyini aşağı salır.

Qeyd olunanları nəzərə alaraq qan xidmətinin müəssisələrinin şəbəkəsinin optimallaşdırılması və fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə

**ƏMR EDİRƏM:**

1. B.Eyvazov adına Elmi-tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun Gəncə, Şəki və Quba regional qan bankları müvafiq olaraq B.Eyvazov adına Elmi-tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun Mərkəzi Qan Bankının Gəncə bölməsi, Şəki bölməsi və Quba bölməsi adlandırılsın.
2. B.Eyvazov adına Elmi-tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun Mərkəzi Qan Bankının Sumqayıt, Mingəçevir, Şirvan, Bərdə və Lənkəran bölmələri yaradılsın.

3. B.Eyvazov adına Elmi-tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun direktoru A.Hacıyevə tapşırılsın:

3.1. institutun strukturu, yeni ştat cədvəli hazırlanaraq təsdiq üçün Səhiyyə Nazirliyinə təqdim edilsin;

3.2. bu əmrin 1-ci və 2-ci bəndlərindən irəli gələn məsələlər həll edilsin.

4. Sumqayıt şəhər Səhiyyə Şöbəsinin müdirinə, Mingəçevir və Şirvan şəhər, Bərdə və Lənkəran rayon mərkəzi xəstəxanalarının baş həkimlərinə tapşırılsın ki, B.Eyvazov adına Elmi-tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun Mərkəzi Qan Bankının ərazi bölmələrinin yerləşdirilməsi üçün müvafiq tədbirlər həyata keçirilsin.

5. Bakı şəhərində qan tədarükünün həyata keçirilməsi Respublika Klinik Xəstəxanasına, M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinə, Milli Onkologiya Mərkəzinə, Kliniki Tibbi Mərkəzə və Bakı 3 nömrəli Şəhər Klinik Xəstəxanasına həvalə olunaraq bu müəssisələrin qanköçürmə şöbələrinin ikili tabeliyi təmin edilsin: inzibati məsələlər üzrə - müəssisə rəhbərliyinə, qan xidmətinin təşkilatı-metodiki məsələləri üzrə - Mərkəzi Qan Bankına.

6. Tibbi yardımın təşkili şöbəsinin müdiri S.Əliyevə, Maliyyə-iqtisadiyyat şöbəsinin müdiri A.Vəliyevə və Bakı Şəhər Baş Səhiyyə İdarəsinin rəisi L.Seyidbəyovaya tapşırılsın ki, bu əmrin 5-ci bəndində göstərilən tibb müəssisələri istisna olmaqla digər tibb müəssisələrinin strukturunda olan qanköçürmə şöbələrinin transfuzioloji kabinetlərə çevrilməsi təmin edilsin.

7. Respublikanın tibb idarə və müəssisələrin rəhbərlərinə tapşırılsın:

7.1. qan komponentlərinin köçürülməsinin məqsədəuyğunluğu və zəruriliyi, eləcə də hemotransfuziya ilə məşğul olan mütəxəssislərin fəaliyyəti şəxsi nəzarətə götürülsün;

7.2. qan komponentlərinə olan tələbat haqqında tibb müəssisələrinin rəhbərləri tərəfindən müvafiq qan tədarükü müəssisəsinə sifariş verməklə onun qəbulu da baş həkim, baş həkimin müalicə məsələləri üzrə müavini, əsas iş vaxtından sonra isə məsul növbətçi həkim tərəfindən akt tərtib edilərək həyata keçirilsin.

8. Tibbi yardımın təşkili şöbəsinin müdiri S.Əliyevə tapşırılsın ki, idarə və özəl tibb müəssisələri ilə qan tədarükü sahəsində qarşılıqlı fəaliyyət barədə təkliflər təqdim edilsin.

9. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının baş həkimi M.Cəfərova tapşırılsın ki, təcili hallarda səhiyyə rəhbərlərinin sifarişi əsasında Mərkəzi Qan Bankının ərazi bölmələrindən təhkim olunmuş tibb müəssisələrinə qan komponentinin çatdırılması təmin edilsin.

10. Bakı şəhərində tibb müəssisələrinə qan komponentlərinin çatdırılması mərkəzləşdirilmiş qaydada B.Eyvazov adına Elmi-tədqiqat Hematologiya və Transfuziologiya İnstitutu tərəfindən, təcili hallarda isə Mərkəzi Qan Bankının sifarişi əsasında Bakı şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının avtomobilləri ilə təmin edilsin.

11. İnnovasiya və Təchizat Mərkəzinin direktoru F.Əliyarzadəyə tapşırılsın ki, qan tədarükü müəssisələri lazımi cihaz və avadanlıqla təchiz edilsin.

12. "Tədarük olunan qanın qeydiyyat jurnalı", "Qan komponentlərinin buraxılış jurnalı", "Qan komponentinin Sertifikatı" formaları və Mərkəzi Qan Bankının bölmələrinin ərazi üzrə təhkim olunma cədvəli təsdiq edilsin (əlavə olunur).

13. Qan komponentlərinə verilən sertifikatın Səhiyyə Nazirliyi tərəfindən çap olunmuş blanklarda yazılması və sertifikatın verilməsi Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilmiş tibb müəssisələri tərəfindən həyata keçirilsin.

14. Bakı şəhərində qan tədarükü və qan komponentlərinin köçürülməsi zamanı istifadə olunan tibbi əşya və ləvazimatların utilizasiyası Bakı şəhər Kliniki Tibbi Mərkəzində həyata keçirilsin.

15. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 10.07.2006-cı il tarixli 112 nömrəli əmrinin 3.2-ci bəndi və 08.02.2008-ci il tarixli 22 nömrəli əmrinin 1 nömrəli əlavəsi qüvvədən düşmüş hesab edilsin.

16. Əmrin icrasına nəzarət Nazir müavini Nigar Əliyevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin
30 11.2010-cu il tarixli
102 əmri ilə təsdiq edilmişdir

**Mərkəzi Qan Bankının bölmələrinin ərazi üzrə təhkim olunma**

**CƏDVƏLİ**

| **Sıra №-si** | **Bölmənin adı** | **Təhkim olunduğu ərazi** |
|---|---|---|
| 1. | Mərkəzi Qan Bankı | Bakı, Abşeron, Qobustan, Şamaxı |
| 2. | Sumqayıt bölməsi | Sumqayıt |
| 3. | Gəncə bölməsi | Gəncə, Şəmkir, Qazax, Ağstafa, Tovuz, Daşkəsən, Gədəbəy, Göygöl, Samux, Goranboy, Kəlbəcər, Xocalı, Naftalan |
| 4. | Şəki bölməsi | Şəki, Zaqatala, Qax, Balakən, Qəbələ, İsmayıllı, Oğuz |
| 5. | Mingəçevir bölməsi | Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Ucar, Zərdab, Ağsu |
| 6. | Quba bölməsi | Quba, Qusar, Xızı, Siyəzən, Şabran, Xaçmaz |
| 7. | Şirvan bölməsi | Şirvan, Hacıqabul, Salyan, Neftçala, Kürdəmir, Saatlı, Sabirabad, İmişli, Cəbrayıl |
| 8. | Lənkəran bölməsi | Lənkəran, Astara, Lerik, Masallı, Cəlilabad, Yardımlı, Biləsuvar |
| 9. | Bərdə bölməsi | Bərdə, Tərtər, Ağcabədi, Beyləqan, Füzuli, Ağdam, Laçın, Xocavənd |

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin
30 11.2010-cu il tarixli
102 əmri ilə təsdiq edilmişdir

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

______________________________
Tibb müəssisəsinin, qan bankının (bölmənin) adı

### Qan komponentinin SERTİFİKATI

№ ______________

Donorun soyadı ______________________
Adı ______________ Atasının adı ______________
Qan komponentinin adı ______________________
Miqdarı (ml) ________ Qrup ________ Rh ____________
İstehsal tarixi ______________ Müayinə tarixi __________
Saxlanma şəraiti ______________ müddəti __________
Müayinələrin (HİV, Sifilis, Hepatit "B" və Hepatit "C")
nəticəsi ______________________
Məsul şəxsin adı, soyadı ______________________
İmzası ______________________
Möhür

Kəsim yeri, geri qaytarılmalı

______________ №-li sertifikatın kötüyü
Xəstənin adı ______________________
Soyadı ______________________
Atasının adı ______________________
Qan qrupu ______________ Rh ____________
Qan komponentinin köçürülmə tarixi ____________
Köçürülmüş qan komponentin miqdarı (ml) ____________
Həkimin adı, soyadı ______________________
İmzası ______________________

Qeyd: sertifikat blankı müəyyən qoruyucu vasitələrlə təmin olunur.

* Qan tədarükü müəssisələrin işarəsi

| | |
|---|---|
| M | -Mərkəzi Qan Bankı |
| G | -Gəncə |
| S | -Sumqayıt |
| Şk | -Şəki |
| Q | -Quba |
| Şr | -Şirvan |
| Mg | -Mingəçevir |
| L | -Lənkəran |
| B | -Bərdə |

Tibb müəssisələri

| | |
|---|---|
| RKX | -Respublika Klinik Xəstəxanası |
| MOM | -Milli Onkologiya Mərkəzi |
| ECM | -Elmi Cərrahiyyə Mərkəzi |
| KTM | -Kliniki Tibbi Mərkəz |
| 3ŞKX | -Bakı 3 nömrəli Şəhər Klinik Xəstəxanası |

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin
30.11.2010-cu il tarixli
102 nömrəli əmri ilə təsdiq edilmişdir

## Tədarük olan qanın qeydiyyat

## JURNALI

| Sıra №-si | Tarix | Donorun adı, soyadı, atasının adı | Ünvanı , telefon | Təvəl-lüdü | Haradan daxil olub | Qan qrupu | Rezus mənsu-biyyəti | Müayinələrin nəticəsi | | | | Hazırlanan komponentin adı və sertifikat nömrəsi | | | Məsul şəxsin imzası | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | HİV | Sifilis | Hepatit B | Hepatit C | Eritrosit ar kütlə | Plaz ma | Digər | | |
| | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | |

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin
30.11.2010-cu il tarixli
102 nömrəli əmri ilə
təsdiq edilmişdir

## Qan komponentlərinin buraxılış

## JURNALI

| Sıra №-si | Tibb müəssisəsinin adı | Qan qrupu | Rezus mənsubiyyəti | Sertifikatın №-si | Komponentin adı | Həcmi (ml) | Buraxılma tarixi | Məsul şəxs (A.S) | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |